# Gənclərdə vətənpərvərlik hissinin inkişafı və tərbiyə edilməsi

**Səyyarə Hətəmli**
*Azərbaycan Dövlət Pedaqiji Universiteti*
**E-mail:** shetemli21@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., L.M.Qurbanova,
psixol.ü.f.d., dos.M.C.İsmayılova

**Açar sözlər:** gənclər, dövlət, şəxsiyyət, özünüdərk, tərbiyə, qəhrəmanlıq
**Ключевые слова:** молодежь, состояние, личность, идентичность, взрастить, геройство
**Key words:** young people, state, identity, self-esteem, upbringing, heroism

Müstəqil Azərbaycan Respublikasının möhkəmlənib inkişaf etməsində gənclər böyük rol oynayır. Gənc nəslin inkişafının bünövrəsini isə kiçik yaşlı məktəblilər təşkil edir. İbtidai sinifdə proqram materialları mənimsənildikcə vətən, xalq, qəhrəmanlıq, dövlətçilik haqqında lazımi faktlar öyrənilir, müstəqil Azərbaycan dövlətinin yaranması, bu dövlətin inkişafında xalq kütlələrinin və ayrı-ayrı şəxsiyyətlərin ictimai fəallığı və s. barədə məlumat əldə olunur. Bu da gənc nəslin həm elmi, həm də siyasi biliyinin artması deməkdir.

Gənc nəslin tərbiyəsinə bu baxımdan kompleks yanaşılmalı və onlar elmi-dünyəvi biliklər almaqla kifayətlənməməli, eyni zamanda yaşadığı ölkənin tarixini, dövlətin siyasi quruluşunu bilən şəxsiyyət kimi tərbiyə olunmalıdır. Orta məktəbdən sonra ali məktəblərdə tərbiyəvi işlər daha da inkişaf etdirilir. Tələbələr eyni zamanda özləri də bir çox əsərlər oxuyur, ictimai işlərdə çalışır, professor-müəllim heyətilə əlaqə və s. özünü geniş şəkildə göstərir.

Məktəbli gənclərə Azərbaycan xalqının inkişaf prosesinin izahı, insanlar arasında ictimai-siyasi fəallıq, Azərbaycanın müstəqil dövlət yaratmasında diplomatik səylər, şəxsiyyətin buna təsiri, müstəqil dövlətin özünün dünya əhəmiyyətli atributları, qədim tarixə, dini adət-ənənəsinə malik, tarix və mədəniyyət abidələrinin yaradılması və onun tədqiqində zəhmətkeş arxeoloqların vətənpərvərlik fəaliyyətləri, milli bayramların yad edilməsi, vətənin müdafiəsinə qalxmış xalq qəhrəmanları, milli ordunun təşkili, Azərbaycan xalqını qəhrəmanlığa səsləyən musiqi və etnoqrafiyası, Azərbaycan təhsil sisteminin böyük nailiyyətlərinin öyrədilməsi sözün əsl mənasında vətənpərvərlik hissinin tərbiyəsi üçün mühüm vasitələr, pedaqoji əsasdır (4, 13).

Vətənpərvərlik hissinin aşılanmasında milli bayramlar, tarixi günləri bilmək əhəmiyyətlidir. 1991-ci ildən öz müstəqilliyini bərpa etmiş milli bayramların qeyd edilməsi dövlət tərəfindən rəsmiləşdirildi. İndi artıq respublikamızda milli bayramlar, eyni zamanda respublikamızın həyatında böyük əhəmiyyəti olan tarixi günlər rəsmi qeyd edilir. Bu əhəmiyyətli günlərdən biri də 9 noyabr- Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür ki, məhz bu günü, onun əhəmiyyətini gənclərin bilməsi çox vacibdir (4, 90).

Vətənpərvərlik hisslərinin aşılanmasında fiziki tərbiyənin böyük əhəmiyyəti var. Oğlan və qızların fiziki cəhətdən inkişaf etmiş gümrah, nikbin, sağlam, fəal şəxslər kimi yetişməsinə bütün tarix boyu yaşlı nəslin böyük marağı olmuşdur. Sağlamlıq insanın yalnız şəxsi firavanlığı üçün deyil, başqa cəhətlərdən də əhəmiyyətlidir. Belə ki, insan nə qədər möhkəm, dözümlü olarsa, quruculuq işində yaxından iştirak edər və yaxşı fəaliyyət göstərər. Fiziki

tərbiyə şəxsiyyətin hərtərəfli inkişafına kömək etməklə yanaşı, bir sıra xüsusi vəzifələri yerinə yetirir. Onlardan biri də məktəbli gənclərdə təhsilə, əməyə və vətənin müdafiəsinə hazır olmaqla bağlı keyfiyyətləri təşəkkül və inkişaf etdirməkdir.

Vətənpərvərlik tərbiyəsinin tərəqqisi bir çox əlamətlərlə bağlıdır.

— vətənə hədsiz məhəbbət;

— vətənin keşiyində ayıq-sayıq dayanmaq;

— işğal olunmuş torpaqlarımızı düşmənlərdən azad etmək;

— Azərbaycanın Silahlı Qüvvələrinin inqilabi, döyüş və əmək ənənələrini yaşatmaq və daha da inkişaf etdirmək;

— Azərbaycanı xarici təhlükədən qorumaq üçün gənclərin hərbi bilik, bacarıq və təfəkkür inkişafına nail olmaq;

— vətənin taleyi üçün məsuliyyət hissi tərbiyə etmək;

— Azərbaycançılıq ideologiyasına layiqincə xidmət etmək (1, 87).

Tərbiyə prosesində erkən yaşlı gənclərə sadəcə olaraq vətənpərvərlik anlayışını öyrətməklə, bu barədə onlara müvafiq bilik verməklə kifayətlənmək olmaz. Tərbiyə işini elə təşkil etmək lazımdır ki, bu biliklər gənclərin əxlaqi keyfiyyətinə, əxlaqi vəzifəsinə çevrilsin. Çünki mənimsənilmiş anlayışlar, əxlaqi biliklər gəncin əxlaqi keyfiyyətinə, onun xarakter əlamətinə çevrilmədikdə, o, heç zaman əxlaqi davranmayacaq, başqa sözlə desək, bu biliyi əməli fəaliyyətinə, əməli davranışına tətbiq etməyəcəkdir. Tərbiyə işi elə təşkil edilməlidir ki, vətənpərvərlik hissi, hiss olaraq qalmasın, o, gənclərimizin adətinə çevrilsin.

Vətənpərvərlik hissinin tərbiyə olunmasında özünüdərk ən təsirli amillərdəndir. Gənclər əvvəlki yaş dövrlərindən fərqli olaraq, vətənə məhəbbətin mənasını anlayır, vətən uğrunda fədakarlığa şüurlu münasibət bəsləyir.

Gənclərdə milli vətənpərvərlik hissini inkişaf etdirmək üçün müəllimlər bəzi üsullardan istifadə edə bilərlər. Bu üsullardan aşağıdakıları göstərmək olar:

1. İnandırma üsulu . İnandırma üsulu ilə gənclərdə milli vətənpərvərlik hissinə inam yaratmaqla onların əqidəsinə təsir göstərilir. Bunun üçün ilk növbədə gənclərə milli vətənpərvərlik hissi barədə daha müfəssəl informasiyalar verməli, komkret nümunələr əsasında onlarda inam yaradılmalıdır ki, vətən yolundafədakarlıq ən gözəl fəzilətdir.

2. Nümunə üsulu. Bütün əxlaqi fəzilətlərin, o cümlədən milli vətənpərvərlik hissinin formalaşdırılmasında nümunə güclü qüvvəsinə malikdir.

Bu baxımdan erməni işğalçıları ilə mübarizədə qətiyyət və igidliklər göstərən, vətən yolunda canından keçən minlərlə vətənpərvər oğullarımızın nümunəsi gənclərimizdə vətənə bağlılığı artırır, onlar belə vətənpərvər igidləri özlərinə ideal seçir və onlara oxşamağa can atırırlar.

Vətənpərvərlik mövzusunda ədəbi-bədii əsərlərin, kinofilmlərin müsbət qəhrəmanların, gənclərin gündəlik rastlaşdıqları müharibə veteranlarının nümunələri də bu cəhətdən faydalı materiallardır.

Rəğbətləndirmə və cəzalandırma üsulu. Bura təmrin, alışdırma və tapşırıq daxildir.

Bu üsullar gənclərin rəftar, davranış və fəaliyyətini tənzimləyir, onları vətənpərvərlik hissi ilə silahlandırır.

Davranışı formalaşdıran üsullar içərisində alışdırma daha çox təsir gücünə malikdir. İstər tapşırıq, istərsə də təmrinlərdə əsas məqsəd gəncləri vətənpərvər olmağa alışdırmaqdan ibarətdir.

Bu üsuldan istifadə edərkən, tələsməməli, səbirli və təmkinli olmaq lazımdır.

Rəğbətləndirmə və cəzalandırma üsulundan istifadə edərkən, milli vətənpərvərlik

tərbiyəsinin tələblərini nəzərə almaq lazımdır ki, gənclər bu üsulun vasitəsi ilə milli vətənpərvərlik hissi tərbiyəsinin qayda və qanunlarını mənimsəyə bilsinlər. Rəğbətləndirmə və cəzalandırmanın müxtəlif vardır ki, tərbiyə zamanı onlardan milli vətənpərvərlik hissi tərbiyəsinə uyğun gələni seçilməlidir (3, s. 290).

**Məqalənin aktuallığı.** Vətənpərvərlik tərbiyəsi bütün dövrlərdə diqqət mərkəzində saxlanılmışdır. Bu gün də müstəqil dövlətimizin tərəqqisində və möhkəmləndirilməsində önəmli yerlərdən birini tutur. Ölkəmizin 20 faizinin erməni işğalı altında olduğu hazırki şəraitdə ailə və məktəbin səyləri əqidəli vətənpərvər yetişdirməyə, vətənin oğul və qızlarını tələb olunan səviyyədə tərbiyə etməyə doğru yönəldilmişdir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik gənclərdə vətənpərvərlik hissinin inkişafı və tərbiyə edilməsində psixoloji xidmətin rolunu araşdırıb təhlil etməkdən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin tələbə və magistrantları istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Əliyev F. Müasir mərhələdə vətənpərvərlik tərbiyəsi. Bakı, 2012.
2. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı: Maarif, 1995.
3. Əzimov Q.E. Psixi İnkişaf və Tərbiyənin Müasir Problemləri. Bakı: 2004.
4. Paşayev T.S. Diyarşünaslıq materialları əsasında gənc nəslin vətənpərvərlik tərbiyəsi. Bakı, 2002.
5. Воспитание патриотизма, дружбы народов, веротерпимости // Педагогика, 2000, № 5


**С. Гатамлы**

## Развитие и воспитание патриотизма в молодежной среде
## Резюме

Патриотическое воспитание всегда было в центре внимания. Сегодня занято одно из важных мест в развитии и укреплении нашего независимого государства. В настоящее время 20% армянской оккупации нашей страны — это усилия семьи и школы по воспитанию патриотического патриотизма, доведение сыновей и дочерей страны до надлежащего уровня.

**S. Hetemli**

## Development and upbringing of patriotism in youth
## Summary

Patriotic education was always in the spotlight. Today one of the important places in the development and strengthening of our independent state has been occupied. At present, 20% of our country's Armenian occupation is the family and school's efforts to raise patriotic patriotism, bring the sons and daughters of the country to the proper level.

**Redaksiyaya daxil olub:** 08.12.2017